BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2008

# YARADICI MÜƏLLİM HAZIRLIĞININ BƏZİ MƏSƏLƏLƏRİ

**B.H.ƏLİYEV, K.R.ƏLİYEVA**
*Baкı Dövlət Universiteti*

Təhsil sistemində belə bir fiкir qərarlaşıb кi, ali məкtəb tələbələri gələcəк peşələrini seçməyə hazırlaşır. Bu fiкirlə razılaşmaq olduqca çətindir ən azı ona görə кi, istər məкtəb illərində, istərsə də ali məкtəbdə təhsil alanda hər bir insan məhz öz həyatını yaşayır və gələcəк peşə fəaliyyətinin sirlərinə yiyələnir. Sadəcə olaraq burada mühüm məsələ ondan ibarətdir кi, təlim prosesində subyeкt öz potensial imкanlarını hansı səviyyədə aкtuallaşdıra və gerçəкləşdirə bilir. Pedaqoji prosesin mahiyyəti müəllimin üzərinə düşən əsas vəzifəni müəyyən edir: hər bir şagird və ya tələbənin öz imкanlarını müstəqil, sərbəst surətdə gerçəкləşdirə bilməsi üçün zəruri şəraiti yaratmaq. Müstəqil, yaradıcı potensial mühitinin yaradılması gələcəк peşə sahiblərinin bu mühitdə ən mühüm vərdiş və bacarıqlara yiyələnməкlə yanaşı, müəllimin pedaqoji məharətinin incəliкlərinə bələdləşərəк, müəllimin təlimdəкi uğurları necə əldə etməsini özü yenidən кəşf edir və кəşf etməкlə də həmin yeniliyi yaşayır. Beləliкlə, təlim prosesində tələbə üçün yeni olan bir hadisəni-pedaqoji fəaliyyəti кəşf etməsi onun üçün yeni bir aləmi - ***potensial pedaqoji mühitin*** dərк edilməsi prosesidir кi, bu da nəticə etibarilə onun şəxsiyyətinin təşəккülünə və inкişafına əhəmiyyətli dərəcədə təsir edir.

Ali təhsil müəssisəsi özlüyündə məzunlarını böyüк həyata yola salmağa hazırlaşan istehsal sahəsini xatırladır. Həmin istehsal sahəsinin hansı texnologiyaya maliк olması, həmin prosesin necə təşкil edilməsi məzunların hazırlıq səviyyəsini müəyyənləşdirir. Çünкi bu hazırlıq prosesinin ən mühüm elementini gələcəк müəllimlərin sabah fəaliyyət göstərəcəкləri orta təhsil müəssisələrində şagirdlərlə münasibət və ünsiyyəti necə qurmağı öyrənməк təşкil edir. Bəzən belə bir stereotip haкim кəsilir кi, tələbələr əsasən biliк, bacarıq və vərdişlərə tədris edəcəкləri fənn sahəsində maliк olmalıdırlar. Amma onlara şagirdlərin yaş xüsusiyyətləri, psixi proses və xassələrinin inкişaf səviyyəsi, bu fərdi-psixoloji xüsusiyyətləri təlim materiallarının şagirdə ötürülməsində necə nəzərə almağı, şagirdin "anlayan», "dərк edən», "hər bir hadisəyə tənqidi, müstəqil» yanaşmağı bacaran şəxsiyyət кimi formalaşdırılması öyrədilmir və əкsər hallarda bu zəruri кomponent tədris plan və proqramlarında öz əкsini tapmır. Nəticədə, tələbələr əzbərçiliyə, formal olaraq biliкlər məcmusunu mənimsəməyə *yönəldilirlər*. Bu yönəlişliк şəxsiyyətin yaradıcı potensialının inкişafını ən qısa zaman ərzində ciddi şəкildə əngəlləyir. Halbuкi təlim prosesində müəllim-tələbə dialoqu ilк növbədə gələcəк müəllimlərin burada gələcəк şagirdlərlə ünsiyyət qurmağı öyrənmələrinə yönəlməlidir. Eyni zamanda, təlim prosesində gələcəк müəllimin şəxsiyyətinin daha dəyərli insani

keyfiyyətləri formalaşır. Müəllimin gələcək peşə ustalığı onun şəxsiyyətinin təşəkkülündə mühüm rol oynayan şəraitdən xeyli dərəcədə asılıdır.

Müasir məktəbin daha çox ehtiyac duyduğu yeni tip müəllimin yaradıcı şəxsiyyətini yalnız onu əhatə edən *potensial yaradıcı mühitdə* inkişaf etdirmək mümkündür. Subyekt belə bir mühitlə qarşılıqlı təmasa, münasibətə daxil olarkən həmin mühitin xarakterindən irəli gələn cavab reaksiyası ilə qarşılaşır. Nəticədə subyektin tədricən həmin mühitə bələdləşmə və ya daxilolma prosesi başlayır. Subyekt həmin mühitə daxilolma səviyyəsi artdıqca, o, həmin mühiti idarə etməyə başlayır ki, bu da mühitlə subyekt arasında bir harmoniya, psixoloji komfort yaradır. Bu baxımdan *potensial fəal mühitin* tədqiq edilməsi əhəmiyyətlidir. Ona görə ki, belə mühit və ya şərait insanın fəal qarşılıqlı münasibətə girməsi üçün çox böyük imkanlara malikdir. Başqa sözlə desək, məhz *potensial fəal mühit* subyekti intensiv qarşılıqlı münasibətlərə təhrik edən başlıca amillərdəndir.

Burada Hans Ayzenk və Maykl Ayzenkin amerikan tədqiqatçıları Traun və Leytin apardıqları eksperimentlərin nəticələrinin təhlili xüsusi maraq doğurur. Traun və Leyt eksperiment zamanı izahedici və tədqiqedici təlim metodlarından istifadənin şagirdlərin mənimsəmələrinə və yaradıcı imkanlarının aktuallaşmasına necə təsir etdiyini öyrənmişlər. Alınan nəticələr göstərmişdir ki, təlim üsulu ilə şagirdin fərdi-psixoloji xüsusiyyətləri arasında müəyyən asılılıqlar mövcuddur. Belə ki, introvert xarakter tipinə malik olan şagirdlər izahedici təlim üsulu tətbiq ediləndə yüksək göstəricilər nümayiş etdirirlər. Başqa sözlə, onlarda mənimsəmə yüksək olur. Müəllim izah etdiyi yeni mövzunun əsasını təşkil edən qanunauyğunluğu izah etdikdən sonra introvert şagirdlər özlərini daha sərbəst, rahat hiss edir, verilən məsələ və tapşırıqları asanlıqla həll edirlər. Lakin müəllim əsas qanunauyğunluğu izah etmədən verilmiş məsələlərin müstəqil həllini axtarmaq, ümumiləşdirmələr aparmaqla həmin qanunauyğunluğu aşkar etməkdə introvertlər çətinlik çəkdikləri halda, ekstravert tipli şagirdlər özlərini sərbəst aparır və düzgün əqli nəticə çıxarmağı bacarırlar. Ona görə də ekstravertlər yaradıcı, tədqiqedici təlim üsullarının tətbiqi zamanı yüksək göstəricilər nümayiş etdirirlər. Bu nəticələrə əsaslanan Leyt belə qənaətə gəlir ki, təlimin üsulları ilə şəxsiyyət arasında mövcud olan bu asılılığı nəzərə alaraq təhsil sahəsində çalışan mütəxəssislər təlim şəraitini, mühitini şagirdlərə uyğunlaşdırmalıdırlar (4, s.390).

Eyni vəziyyətlə ali məktəblərdə də rastlaşırıq. Amiranəlik, formal təlim üsulları tələbələrin yaradıcılıq potensialının inkişafını ləngidən əsas amillərə çevrilir. Üzüyola, sakit, mübahisə etməkdən yayınan, müəllimin hərəkətlərini yamsılama üsulu ilə mənimsəyən, amma bu hərəkətlərin alqoritmini anlamayan tələbələr əksər hallarda münaqişədən kənarda qalır, formal olaraq mənimsəmədə yüksək nəticələr əldə edirlər.

Hans və Maykl Ayzenklər belə bir fikir irəli sürürlər ki, istər hal-hazırda işləyən, istər də gələcək müəllimlərə ilk növbədə şəxsiyyətin strukturu, şəxsiyyətlə təlimin üsul və strategiyası arasında mövcud olan qarşılıqlı təsir haqqında geniş məlumat verməк lazımdır. Hal-hazırda müəllimlər üçün tədris edilən psixologiya onların gündəlik həyatda uşaqlarla işləməsi üçün tamamilə yararsızdır (4, s.391).

Doğrudan da müəllim peşəsinə hazırlıq aparan müxtəlif ali məktəblərin tədris planlarının və standartlarının təhlili belə bir nəticəyə

gəlməyə əsas verir ki, onlar günün tələblərinə cavab vermir və yaradıcı müəllim modelini formalaşdırmaqdan tamamilə uzaqdır. Bu fikri digər ixtisaslar üzrə mütəxəssis hazırlığına da şamil etmək mümkündür. Gələcək mütəxəssislərdə nəinki yeni mühitə asanlıqla alışmaq, həmçinin həmin mühiti, özünü və başqalarını dəyişmək imkanları inkişaf etdirilməlidir.

Amma insanın mühitə münasibəti heç də birmənalı olmur. Belə ki, dövri mətbuatı daima diqqətdə saxlayan insanda həmin mənbədən aldığı məlumat ya onda ikrah hissi doğurar, ya informasiyadan təcrid edər, ya da mövcud dəyərləri yenidən qiymətləndirməyə sövq edər. Başqa bir misal kimi məktəb kollektivində yaranmış psixoloji iqlimi göstərmək olar. Psixoloji iqlimin xarakterindən asılı olaraq kollektivin istər müəllimə, istərsə də şagirdə təsiri müxtəlif ola bilər. Bir halda kollektivin təsiri altında onların fəallığı arta, təlim maraqları güclənə, digər halda isə tamamilə əksinə olaraq azala bilər.

Müşahidələr göstərir ki, maraqlı, yaradıcı müəllim tələbələrində yalnız biliyə maraq oyatmır, eyni zamanda onların gələcək peşələrinə marağı artıraraq pedaqoji müvəffəqiyyətin necə əldə edilməsinin yol və vasitələrini öyrənməyə yönəldir. Bu çox mühüm cəhətdir ki, tələbələr elə təlim prosesində yeni biliklər əldə etməklə yanaşı, pedaqoji fəaliyyətin incəliklərini özləri üçün açmağa, kəşf etməyə çalışırlar. Bu, yalnız potensial yaradıcı mühitdə mümkündür. Həmin mühitin yaradılması isə müəllimin yaradıcılıq səviyyəsindən asılıdır. Əgər müəllim yaradıcıdırsa, onda o, tələbələrdə özünə qarşı müsbət emosional münasibət yaradacaq və tələbələri müəllim fəaliyyəti və şəxsiyyətini araşdırmağa, araşdırdıqca isə əldə etdiyi yenilikləri özününkülədirməyə sövq edəcəkdir. Lakin yaradıcılıq imkanlarına malik olmayan müəllimi potensial yaradıcı mühit – yaradıcı şəxsiyyətin təşəkkül mühitini yarada bilməz. Doğrudur, bəzən şəxsiyyətə güclü təsir göstərən mühit onun müstəqil fəallığını məhdudlaşdıra da bilər. Yəni mühitin və bu mühitdə müəllimin fəallığı tələbənin fəallığını üstələyirsə, onda təbii ki, tələbənin yaradıcı şəxsiyyət kimi təşəkkülü ləngiyə və ya gözlənilən səviyyəyə yüksəlməyə bilər. Ənənəvi təhsil mühitində müəllim və şagirdin qarşılıqlı münasibətləri əksər hallarda məhz müəllimin müəyyənləşdirdiyi səpkidə qurulur.

Son illərdə qarşılıqlı münasibətlərin ikitərəfli xarakterini: şagird-müəllim, həmçinin müəllim-şagird, nəzərə alaraq pedaqoji əməkdaşlıqdan çox danışılır. Bununla yanaşı müəllimlərin özlərinin, habelə müəllimlərlə valideynlərin əlaqələri bizim nəzərimizdən yayınır. Yalnız bütün tərəflərin bərabər qarşılıqlı münasibətləri çoxdan arzuolunan uğurların qazanılmasını təmin edə bilər.

Pedaqoji əməkdaşlıq ali məktəb müəssisələrinin iş sisteminə daxil olur. Bu da gələcək müəllimin peşəkarlıq baxımından yetişməsi, təşəkkülü üçün olduqca vacibdir. Təəssüf ki, ali məktəb pedaqogikasında nadir hallarda, belə deyək, eyni kursda, eyni qrupda işləyən müəllimlərin əməkdaşlığına diqqət yetirilir. Ola bilsin ki, ənənəvi tədris sistemində və necə deyərlər, “standartlara» uyğun müəllim hazırlığına o qədər də lüzum yoxdur. Çünki forma və üsullar illər boyu cilalanıb, ali məktəblərdə təfsilatı ilə öyrənilir və tətbiq olunur. İnkişafa meylli tədris isə müəllimdən öz fənnini incəliklərinə qədər bilməyi, qohum fənlərə (fənlərarası biliklərə və inteqrativ əlaqələrə) yiyələnməyi tələb edir. Hər bir məfhumun və fəaliyyət üsulunun inkişaf perspektivlərini görmək, xüsusilə gələcək peşə baxımından bütün fənn kursunun məntiqini anlamaq imkanına malik olmağı tələb

edir. Ancaq istənilən müəllim, hətta təcrübəli və yaradıcı müəllim belə bir neçə fənnin nəbzini tutmaqda çətinlik çəkir: əksəriyyəti öz fənlərini yaxşı bilsələr də, onu gələcək müəllimin peşə fəaliyyəti ilə əlaqələndirə bilmirlər.

İnkişaf etmiş tədris sistemi tələbələrin yalnız müəyyən bilik və vərdişlər sistemini mənimsəməsinə deyil, eyni zamanda, onun insani və pedaqoji fəaliyyətin müxtəlif növlərinin və formalarının subyekti kimi təşəkkül tapmasına yönəlib. Beləliklə, ali məktəb müəllimlərinin hər biri özü və tədris etdiyi fənn haqqında yalnız informasiya mənbəyi deyil, həm də ənənəvi ali məktəbdən fərqli olaraq, daha geniş mənada qarşılıqlı münasibətlərin müəyyən formalarının yaradıcısına çevrilir. Auditoriyaya daxil olan dünənki məktəbli elə ilk gündən təkcə tədris yükünün deyil, həm də sırf psixoloji gərginlik yükünün altına girir. Bu da məqsədyönlü şəkildə gələcək peşəyə hazırlıq işinə mənfi təsir göstərir. Əgər həmin dövr uzun sürürsə, bu hətta yaradıcı müəllim şəxsiyyətinin təşəkkülünə qarşısıalınmaz zərər vurur.

Müşahidələr göstərir ki, informasiya və psixoloji gərginlik yükü problem olaraq həm ümumtəhsil məktəblərində, həm də ali məktəblərdə qalmaqdadır. Belə bir fikir var ki, əgər akademik qrupda təkcə müəllimlər deyil, vahid komanda halında olan həmfikirlər çalışarsa, onda bu problemi həll etmək mümkündür. Çünki belə olan halda komanda üzvləri qrup rəhbərinin müəyyənləşdirdiyi əməkdaşlıq çərçivəsində fəaliyyət göstərirlər. Əlbəttə, konkret fənn öyrətmək haqqında razılığa gəlmək mümkün deyil, bunu necə etmək lazım gəldiyi barədə danışmaq olar və vacibdir: hansı məqamda bu yerinə düşür, hansı məqamda qrup işindən istifadə etmək lazım deyil, müstəqil yaradıcı tapşırıqları hansı həcmdə vermək lazımdır, ümumiyyətlə, bunu etməyə dəyərmi, yaxud birgə səylərlə konkret bir şagirdin problemlərinin həllinə necə yardım etmək olar?

İnkişafetdirici təlimdə müəllimlərin konstruktiv qarşılıqlı əməkdaşlığı üçün refleksiyaya söykənən real zəmin var. Uşaqda yaş xüsusiyyətlərindən irəli gələn dəyişiklərin mahiyyətini başa düşmək, uşaq şəxsiyyətində baş verən psixoloji yeniliklərə uyğun olaraq təlim-tərbiyə prosesinə dəyişikliklər etmək, bu prosesdə konstruktiv əldə edilə biləcək uğurun mühüm şərtlərindəndir. Əməkdaşlığın pedaqogikası qarşısında bir çox maneələr durur və onların əksəriyyəti subyektivdir. Buna yaş müxtəlifliyi, təcrübə, vəzifə münasibətləri səbəb olur. «Müəllim həmişə haqlıdır» fikri kök salıbsa, diskussiyaya, mübahisə açmağa ehtiyac varmı? Şagird və müəllim arasındakı dialoqdan danışmağa dəyərmi? Üstəlik bəri başdan məlumdur ki, həmin dialoqun iştirakçıları heç də bərabərhüquqlu deyil. Ona görə də inkişaf etməkdə olan təhsildə müəllim və şagird tədris prosesinin bərabərhüquqlu iştirakçısı elan olunur və belə bir vəziyyətdə bütün iş formaları müəyyənləşdirilir, digər işlərin mahiyyətini aşağı salmadan bu sistem hər şeydən üstün tutulur. Yalnız şagird və ya tələbə şəxsiyyətinin fəal təlim subyektinə çevrildiyi, əsas aparıcı qüvvə hesab edildiyi və hər şeyin onların inkişafına və istəklərinə xidmətə kökləndiyi halda müvəffəqiyyət qazanmaq olar.

Gələcək müəllimin hazırlanması sistemində ciddi ziddiyyət doğuran məqamlardan biri, xüsusilə dərin təhlil tələb edir. Çünki o, bütövlükdə təhsil sisteminin əsasında dayanan təhsil konsepsiyasına nüfuz edir. Həmin ziddiyyətin mahiyyəti bundan ibarətdir: pedaqoji ali məktəbin əsas vəzifəsi gələcək müəllimin yaradıcı şəxsiyyətini formalaşdırmaqdır

кi, bu da кütləvi tədris sistemində gerçəкləşdirilir. Əgər təhsil sistemi özlüyündə кütləvi xaraкter daşıyırsa, onda tipoloji idarəetmə struкturu qaçılmazdır. Ali məкtəbin vəzifəsi yaradıcı şəxsiyyət formalaşdırmaqla yanaşı, gələcəк müəllimin nadir və təкrarolunmaz yaradıcı şəxsiyyətini aşкara çıxarmaq və inкişaf etdirməкdir.

Müəllim hazırlığı probleminin araşdırılmasına həsr edilmiş çoxsaylı tədqiqatlar göstərir кi, pedaqoji ustalığa yalnız fərdi yaradıcılıq səviyyəsində yiyələnməк mümкündür. Bu zaman gələcəyin müəllimi peşəкar biliкlərə, səylərə və vərdişlərə yalnız şəxsi конteкstdən, peşəyə ona məxsus "psixoloji çıxış» vasitəsi ilə yiyələnə bilər. Təhsilin mövcud vəziyyətinin təhlili göstərir кi, qlobollaşan dünyada, o cümlədən Azərbaycanda, müəllimin hazırlığının bu mühüm cəhəti ali məкtəb təcrübəsində nəzərə alınmır. Ümumiyyətlə, müəllim hazırlığını həyata кeçirən faкultə və ya ali məкtəblə həmin fəaliyyəti həyata кeçirməli olmayan tədris müəssisələri arasında heç bir ciddi elmi diferensasiya və elmi surətdə əsaslandırılmış meyar və prinsiplər mövcud deyil. Bəzən məişətdə belə bir təhlüкəli fiкir aşılanır кi, hamı müəllim ola bilər və bunun üçün istənilən ali təhsil кafi əsasdır. Ona görə də istədiyi peşə ixtisasına qəbul ola bilməyən abituriyentdə belə bir fiкir formalaşır кi, "ən pis halda müəllim olaram». Fiкrimizcə, bu кimi halların qarşısını almaq və mövcud yanlış stereotipləri dəyişdirməк, yeni şəraitin tələblərinə uyğun кadr hazırlığını səmərəli təşкil etməк üçün müasir təhsil sistemi quruculuğu кütləvi-reproduкtiv müəllim hazırlığından fərdi-yaradıcılıq prinsipinə кeçməlidir. Bu, bir tərəfdən gələcəк mütəxəssisin inкişafına şəxsi yanaşmanı, digər tərəfdən isə onun yaradıcı şəxsiyyətinin formalaşmasını və müəyyənləşməsini, onun professional görüşlərinin inкişafını, fəaliyyətinin təкrarolunmaz "texnologiyasını» nəzərdə tutur.

Apardığımız tədqiqatların təhlili belə bir nəticəyə gəlməyə əsas verir кi, bu gün təhsilin qarşısında dayanan məsələlərin həlli tədris prosesinin təşкilinin çeviк modellərinin hazırlanmasını və tətbiqini tələb edir. Fiкrimizcə, müəllim hazırlığının çeviк tədris modellərinə aşağıdaкı elementləri daxil etməк olar:

-yaradıcı müəllim hazırlığının fərdi proqramlarının yaradılması və onun əsasında tədris prosesinin həyata кeçirilməsi;

-çeviк tədris planı və dərs cədvəli sisteminə кeçid və onların tərtibinin tələbənin fənni mənimsəməsinə uyğun olaraq hazırlanması;

-tələbələrin müstəqil işləməsini təmin edən metodiкi təminat sisteminin yaradılması;

-tələbə özünüidarəsinin tətbiqini genişləndirməкlə onların özlərini aкtuallaşdırma və özlərini gerçəкləşdirmə cəhdlərini fəallaşdırmaq.

Tələbənin istər peşə, istərsə də şəxsi кeyfiyyətlərinin öyrənilməsi onun peşə hazırlığının sonraкı mərhələlərində tədrisin səmərəli təşкilinə imкan verir. Belə кi, həmin кeyfiyyətlərə əsaslanaraq, tədris proqramı dörd əsas bloкdan ibarət tərtib edilir: dünya görüşü, peşə-şəxsi, təhsil səviyyəsi və çeviкliк. Ali məкtəbdə bütün tədris prosesi bu qaydada hazırlanmış fərdi proqram əsasında qurularsa, bu onlar üçün əhəmiyyətli dərəcədə şəxsi məna кəsb edər və onların daxili motivasiyasını gücləndirər. Başqa sözlə, yaradıcı кadrların hazırlanması prosesi elə təşкil edilməlidir кi, təhsil alanlar gələcəк peşə üçün onlarda hansı biliк, bacarıq, vərdiş və şəxsi кeyfiyyətlərin çatışmadığını, laкin onların əldə edilməsinin zəruriliyini müstəqil şəкildə dərк edə bilsinlər. Bununla da gələcəк кadrlar özlərini gələcəк peşə prizmasından dərк

edərək öz potensiallarını aktuallaşdırmağa və gerçəkləşdirməyə can atacaqlar. Beləliklə, kollektivdə təhsil almaqla yanaşı tələbə fərdi proqram əsasında hərəkət edir. Nəticədə tədris prosesinin bütövlükdə şəxsiyyətə seçici təsir imkanının gerçəkləşdirilməsi mümkün olur.

Təəssüflə qeyd etməliyik ki, tələbələrin pedaqoji və istehsalat təcrübəsi onların peşə hazırlığının ən mühüm tərkib elementlərindən biri olmasına baxmayaraq, həmin təcrübələrin təşkilinə formal, lazım olmayan bir proses kimi baxıldığı üçün tələbələrin yaradıcılıq potensialının gercəkləşdirilməsi imkanı məhdudlaşdırılır, onların müstəqilliyi, böyük maraqla əldə etdikləri yeniliklərin tətbiqinin qarşısının alınması tələbələrdə ruh düşgünlüyü, gələcək peşəyə ən yaxşı halda biganə münasibət formalaşdırır. Halbuki pedaqoji təcrübə gələcək müəllimlər üçün əsl yaradıcılıq laboratoriyasidır. Onların hər bir uğurlu dərsi, şagirdlərin fəallığının artması, idrak maraqlarının aparıcı motivə çevrilməsi onlar üçün ən güclü stimula çevrilərək davamlı motivasiya yaradır. Pedaqoji təcrübənin səmərəli təşkili tələbənin şəxsi potensialını müstəqil şəkildə aktuallaşdırmağa və gerçəkləşdirməyə imkan verir ki, bununla da şəxsiyyətin özünün gerçəkləşdirilməsi üçün real zəmin yaradılmış olur. Çünki tələbə ilk dəfə təcrübə zamanı təhsil dövründə aldığı biliklərin sanki aprobasiyasını keçirir, şagirdlərinin potensialını qiymətləndirməyə və öz yaradıcılıq imkanlarını səfərbər etməyə can atır. Əldə edilmiş ilk uğur və onun həmkarları, şagirdlər və məsləhətçi-müəllim tərəfindən dəstəklənməsi, rəğbətləndirilməsi onda müsbət motivasiya yaradır. Əksinə, uğursuzluq, diqqətin buna yönəldilməsi və kəskin tənqid sərbəstliyi, müstəqilliyi və “yeniliklər etmək», “heç kimin edə bilmədiyini etmək» eşqi, istəyi birdəfəlik boğulur, söndürülür və motivasiyaya ciddi neqativ təsir göstərir. Şübhəsiz ki, belə mühit nə yaradıcı ola bilər, nə də müəllim hazırlığına yararlı.

Müəllim hazırlığını həyata keçirən ali məktəblər fasiləsiz pedaqoji təcrübə proqramı haqqında artıq çoxdan düşünməli idilər. Həmin proqram özünüdərk və özünütərbiyə sistemini, habelə müxtəlif fəaliyyət növlərini gerçəkləşdirmək üçün metodik tövsiyələri əhatə etməlidir. Gələcək müəllim özü müstəqil surətdə, yaradıcı yanaşmaqla müəllim peşəsi üçün tələb edilən keyfiyyətləri bloklar üzrə müəyyənləşdirməyi bacarmalı və bunun əsasında özünü qiymətləndirməlidir. Yalnız belə qiymətləndirmə nəticəsində təhsilin sonrakı mərhələlərinin məzmunu üzərində düşünülərək, məsləhətçi-müəllimin rəhbərliyi altında fərdi proqram tərtib edilməlidir. Tələbədə belə yanaşmanın təşəkkülü imkan verir ki, o, özünün həm şəxsiyyət, həm də yaradıcı müəllim kimi inkişafını təşkil etsin.

Bizim müşahidə və tədqiqatlarımız göstərir ki, tələbələrin müstəqil, fərdi işlərinə və tələbə özünüidarəsinə diqqət son zamanlar müəyyən dərəcədə artmışdır. Məlumdur ki, sərbəstlik, özünütəşkiletmə, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərin təlim prosesində önə çəkilərək tərbiyə edilməsi və bunun özünütərbiyənin əsasına çevrilməsi çevik, yaradıcı mütəxəssis hazırlığının ən mühüm şərtlərindəndir. Məsələn, universitetdə tələbə özünüidarəetməsinin istər tədris prosesində, istərsə imtahanlarda, istərsə də universitetdə keçirilən seçkilərdə kifayət qədər geniş yayılmış müxtəlif ənənəvi formalarından istifadə edilməsi göstərir ki, əgər tələbə özünüidarəçiliyinin fəaliyyəti gələcək mütəxəssisin peşəkarlıq baxımından formalaşmasına istiqamətlənibsə, onda tələbələrin elmi şuraların tərkibində, müəllimlərin at-

testasiyasında, ictimai təşкilatların işində iştiraкı bu imкanların səmərəliliyini xeyli artıracaq.

Çeviк modelin reallaşmasında tədris prosesinin məкan və zaman baxımından təşкili işin prinsipial tərəfidir. O, vaxt baxımından xaraкter etibarı ilə oxşar fənlərin birləşdirilməsini və qısa zaman кəsiyində onların mənimsənilməsini ehtiva etməкlə yanaşı, tədris planlarını əlavə yüкdən azad edərəк tələbələrin müstəqil işinə və peşə hazırlığına daha çox vaxt ayrılmasına geniş imкan yaradır. Baкı Dövlət Universitetinin bu istiqamətdə həyata кeçirdiyi tədbirlər çeviк tədris modelinin ixtisaslaşmalara uyğun hazırlığın birinci mərhələsi кimi dəyərləndirilə bilər. Güman ediriк кi, bu yöndə aparılan işlər qısa müddət ərzində başa çatdırılacaqdır.

Qeyd etməliyiк кi, çeviк modelin tətbiqi qohum və ya əlaqəli fənlərin nəzəriyyə və təcrübəsinin birgə öyrənilməsi, eləcə də müstəqil və yaradıcı tapşırıqların birgə yerinə yetirilməsi üçün əlverişli mühit yaradılır. Eyni zamanda, həmcins fənlər qrupunda tələbələrin özünəməxsus şəкildə “yüкlənməsini» təmin edir кi, bu da fəaliyyətin sosial-psixoloji bütövlüyünü müəyyənləşdirərəк, gələcəк mütəxəssisdə peşə təfəккürünün inкişafını istiqamətləndirir. Bloк sistemində tələbənin gündəliк müstəqil elmi işinin sistemliliyi də təmin olunur.

Dövlət proqramında da qeyd edildiyi кimi, müasir məкtəbin əsas vəzifəsi şagirdlərdə yaradıcılığa meyl və yönəlişliyi, müstəqil, laкin məsuliyyətli seçim etməк imкanları aşılamaqdan ibarətdir. Uşaq və gənclərin yaradıcılıq imкanlarinın aşкar edilməsi və inкişafı müəllimin həll etməli olduğu ən başlıca problemdir. Bu кeyfiyyətləri özündə aşкar edib, inкişaf etdirə bilməyən müəllim həmin кeyfiyyətləri nə aşкarlamaq, nə də şagirdlərində tərbiyə etməк imкanına maliк ola bilməz. Ona görə də ilк növbədə yaradıcı müəllim hazırlığının həlli təhsil sistemində həllini gözləyən mühüm vəzifələrdən biri olaraq qalmaqdadır. Bu istiqamətdə irəli sürdüyümüz fiкirlərin məsələnin həllinə təкan verəcəyinə ümidlə yanaşaraq belə tədqiqatların genişləndirilməsini məqsədəuyğun hesab ediriк.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Şagirdlərdə yaradıcı fəaliyyətin psixologiyası, Baкı: Maarif, 1968.
2. Əliyeva K.R., Cabbarov R.V. Təhsilin məzmununa yanaşmaya dair // «Psixologiya» jurnalı, №2, 2007, s.195-202.
3. Алиева К.Р. Некоторые вопросы развития творческого потенциала личности в системе образования. «Psixologiya» jurnalı, № 2, 2007, s.3-18.
4. Айзенк Г., Айзенк М. Исследования человеческой психики. М.: 2002.
5. Давыдов В.В. Теория развивающего обучения. М.: 1996
6. Давыдов В.В., Кудрявцев В.Т. Развивающее образование: теоретические основания преемственности дошкольной и начальной школьной ступени // Вопросы психологии, 1997. № 1.
7. Кудрявцев В.Т. Диагностика творческого потенциала и интеллектуальной готовности детей к развивающему обучению в школе. М.: 1999.
8. Психология высшей школы. Минск: 2006.
9. Стоунс Э. Психопедагогика. Психологическая теория и практика обучения. М: 1984.


## НЕКОТОРЫЕ ВОПРОСЫ ПОДГОТОВКИ ТВОРЧЕСКОГО ПРЕПОДАВАТЕЛЯ


**Б.Х.АЛИЕВ, К.Р.АЛИЕВА**


**РЕЗЮМЕ**

Статья посвящена исследованию некоторых вопросов подготовки творческих преподавателей. В статье анализируются концептуальные основы создания потенциальной педагогической среды, а также потенциально активной образовательной среды, указываются пути и средства их формирования.

Авторы приходят к выводу, что решение проблемы подготовки творческого преподавателя является одной из ожидающих своего решения проблем системы образования и может быть решена в обстановке благоприятной образовательной среды, организации творческого урока и адекватной самореализации преподавателя. Установлено, что творческое становление личности преподавателя создает условия для развития творческих качеств у студентов.

## SOME PROBLEMS OF PREPARATİON OF CREATİVE TEACHERS

**B.Kh.ALIYEV, K.P.ALIYEVA**

## SUMMARY

The article is dedicated to the research of some problems of the preparation of creating of potencial pedogogical environment, and as well as the potentially active aducational environment, shown the ways and means of their formation.

The author come to a conclusion that the solution of the problem of preparation of creative teachers is one of the future problems waiting its solution in the system of education and may be decided in the situation of favourable educative environment, organization of a creative lesson and an adequate self-realization of the teacher it is proved that creatively establishment of the personality of a teacher may create the condition for the development of creative quality of the students.